

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Avqust - 2018

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**

**Made in Azerbaijan**

## “TURİZM AZƏRBAYCANDA PRİORİTET İSTİQAMƏTLƏRDƏN BİRİDİR”

## “TURİSTLƏRİN SAYI 2016-CI İLDƏ 22 FAİZ, 2017-Cİ İLDƏ 20 FAİZ, BU İLİN 7 AYINDA 9 FAİZ ARTIB VƏ BU PROSES DAVAM EDİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2018-ci il 26 avqust tarixində
Lahıc qəsəbəsinin sakinləri ilə
görüşündəki nitqindən




“Turizm Azərbaycanda prioritet istiqamətlərdən biridir. Mənə verilən məlumata görə, Lahıcda otellər tikilir, bir otel indi məktəbin önündə inşa edilir. Mən bunu da alqışlayıram. Bax, turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 7 ayında 9 faiz artıb və bu proses davam edir. Hər gələn turist xidmət sektorunun inkişafına xidmət göstərir.

Mən istəyirəm ki, hər bir yerdə, ölkəmizin hər bir guşəsində insanlar daha da yaxşı yaşasınlar, onların həyat səviyyəsi yüksəlsin, dolanışıq yaxşı olsun.”

# MÜNDƏRİCAT


1 Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

2 Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 10

3 Azexport.az portalına 2018-ci ilin yanvar-iyul aylarında 315,5 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 16

4 "ASAN ödəniş" sistemi "www.azexport.az" internet portalına inteqrasiya olunur — səh. 20

5 "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi sahibkarların xidmətindədir — səh. 21

6 Azərbaycan məhsulları "Çin-Avrasiya" Sərgisində nümayiş olunmuşdur — səh. 24

7 İxracatçılar klubunun növbəti iclası keçirilmişdir — səh. 25

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **969** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **114** milyon ABŞ dolları və ya **13%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracda dinamik artım müşahidə olunur. Belə ki, 2018-ci ilin yanvar-iyul ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **969 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 7 ayında qeyri-neft sektoru üzrə ixrac **114 milyon** ABŞ dolları və ya **13 faiz** artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin yanvar-iyul ayları ərzində Rusiyaya **353 milyon**, Türkiyəyə **215 milyon**, Gürcüstana **81 milyon**, İsveçrəyə **78 milyon** və Çinə **29 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 7 ayı ərzində Rusiyaya ixrac **13%**, Türkiyəyə **21%**, Gürcüstana **5%**, İsveçrəyə **2%** və Çinə **70%** artmışdır.

2018-ci ilin yanvar-iyul ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında **pomidor** (144 milyon ABŞ dolları) birinci, **qızıl** (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 68 milyon ABŞ dolları) ikinci və xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı **polietilen** (57 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Cari ilin yanvar-iyul aylarında elektrik enerjisi, pambıq lifi (daranmaya məruz qalmamış), albalı və gilas, qabığı təmizlənmiş meşə fındığı, emal olunmamış aşqarlanmamış alüminium, kartof və digər məhsullar da qeyri-neft ixracında önəmli paya sahib olmuşlar.

Ümumiyyətlə, 2018-ci ilin yanvar-iyul ayları ərzində meyvə-tərəvəz ixracı **301 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **79 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **78 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **49 milyon**, pambıq lifi ixracı **45 milyon**, kimya sənayesi məhsullarının ixracı **41 milyon**, pambıq ipliyi ixracı **12 milyon** ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 7 ayında elektrik enerjisinin ixracı 2,2 dəfə, pambıq ipliyinin ixracı 32 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 16 faiz, meyvə-tərəvəzin ixracı 19 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 14 faiz, kimya sənayesi məhsullarının ixracı 1 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin iyul ayında isə qeyri-neft sektoru üzrə ixrac **122 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin iyul ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında ilk beşlikdə Türkiyə (35 milyon ABŞ dolları), Rusiya (33 milyon ABŞ dolları), İsveçrə (9 milyon ABŞ dolları), Gürcüstan (7 milyon ABŞ dolları) və Qazaxıstan (5,8 milyon ABŞ dolları) qərarlaşmışlar.

2018-ci ilin iyul ayında qeyri-neft sektoru üzrə ixracda **pambıq lifi** (16 milyon ABŞ dolları) liderliyi ələ almışdır. Bu siyahıda **albalı və gilas** (11 milyon ABŞ dolları) ikinci, **qızıl** (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 7,8 milyon ABŞ dolları) isə üçüncü olmuşdur.

Həmçinin 2018-ci ilin iyul ayında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti), tomat, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, şaftalı, qara metallardan neft-qaz buruqlarının qazılması üçün qaynaq yeri olmayan digər nasos-kompressor boruları, emal olunmamış aşqarlanmamış alüminium qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2018-ci ilin yanvar-iyul ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI AVQUST



# 2018-Cİ İLİN **İYUL AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



2018 İXRAC İCMALI AVQUST

# 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 144,1 | 127,9 |
| Qızıl | 68,5 | 60,7 |
| İlkin formalı polietilen | 57,3 | 54,4 |
| Elektrik enerjisi | 56,9 | 25,9 |
| Pambıq lifi *(mahlıc)* | 44,7 | 25,1 |
| Albalı və gilas | 38 | 23,2 |
| Fındıq ləpəsi | 37,2 | 33,9 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 33,2 | 16,6 |
| Kartof | 29,6 | 25,8 |
| Digərləri | 459 | 461,1 |












# 2018-Cİ İLİN **İYUL AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2018 | 2017 |
|---|---|---|
| Pambıq lifi *(mahlıc)* | 16,4 | 2,3 |
| Albalı və gilas | 11,2 | 7,4 |
| Qızıl | 7,8 | 9,8 |
| İlkin formalı polietilen | 7 | 6 |
| Metanol | 6,6 | 7,3 |
| Tomat | 4,1 | 6,9 |
| Digər yağlar və məhsullar | 4,1 | 6,2 |
| Şaftalı | 3,7 | 3,9 |
| Digər nasos kompressor boruları | 3,5 | 3,4 |
| Digərləri | 57,6 | 64,2 |












2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



## 2018-ci ilin **YANVAR-İYUL AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2018-ci ilin yanvar-iyul aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2018-ci ilin yanvar-iyul ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyeklərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Kapitan Fruits" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, “Food Export Şəmkir” MMC, “Azfruittrade” MMC, “Şirin Aqro” QSC, İskəndərov Sahib Səməd oğlu, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC.

Qeyd edək ki, 2018-ci ilin yanvar-iyun ayları üzrə tərtib edilən reytinqlə müqayisədə hazırki siyahıda "MKT İstehsalat Kommersiya" MMC-nin və fiziki şəxs İskəndərov Sahib Səməd oğlunun mövqeyini möhkəmləndirdiyini müşahidə edirik. Eyni zamanda, bu siyahıda əsas dəyişikliklərdən biri də "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin ilk onluqda yer almasıdır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən və bir milyon ABŞ dollarından çox ixrac həyata keçirən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Det-al Alüminium" MMC, "Azərenerji" ATSC, "Azergold" QSC, "SOCAR Methanol" MMC, “CTS-Agro” MMC, "Azərbaycan Hava Yolları" QSC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



2018 İXRAC İCMALI AVQUST

# 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA "AZƏRKOSMOS"** ASC **14 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2018 İXRAC İCMALI AVQUST

2018-ci ilin yanvar-iyul aylarında "Azərkosmos" ASC tərəfindən Fransa, Malayziya, BƏƏ, Almaniya və Gürcüstan başda olmaqla dünyanın **22 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 87 faizini təşkil etmişdir. "Azərkosmos" ASC-nin 2018-ci ilin iyul ayında dünyanın **15 ölkəsinə** reallaşdırdığı xidmət ixracının dəyəri isə **1,3 milyon** ABŞ dolları olmuşdur.





2018-ci ilin **YANVAR-İYUL AYLARINDA**
Azərbaycana gələn xarici vətəndaşlar
**BANK KARTLARI VASİTƏSİ İLƏ**
**747** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə
xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə
apardıqları əməliyyatların dəyəri
**144** milyon manat və ya **24%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana dünyanın 191 ölkəsindən 1655,3 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 31,5 faizi Rusiya Federasiyası, 19,8 faizi Gürcüstan, 10,3 faizi Türkiyə, 10,0 faizi İran, 3,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2, 4 faizi İraq, 2,0 faizi Ukrayna, 20, 4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 11,3 faizi yanvar, 10,0 faizi fevral, 16,7 faizi mart, 13,2 faizi aprel, 12,6 faizi may, 16,2 faizi iyun, 20,0 faizi isə iyul ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-iyul aylarında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ümumilikdə ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərindən biri Körfəz ölkələrindən olmuşdur. 2018-ci ilin yanvar-iyul aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7, 4 faiz artaraq 65,9 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 5,6 faiz artaraq 614,2 min nəfər olmuşdur.

Cari ilin yanvar-iyul aylarında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Mərkəzi Bankın məlumatına əsasən 2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **747 milyon** manat təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **144 milyon** manat və ya **24 faiz** artmışdır.

2018-ci ilin iyul ayında isə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **126 milyon** manat təşkil etmiş və ötən ilin iyul ayı ilə müqayisədə 32 faiz artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon AZN)**

## 2016-cı il

Yanvar - **28,2**
Fevral - **36,7**
Mart - **40,6**
Aprel - **34,5**
May - **48,6**
İyun - **74,8**
İyul - **40,9**
**Cəmi - 304,3**

## 2017-ci il

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**
İyul - **95,7**
**Cəmi - 603,1**



## 2018-ci il

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel - **109,7**
May - **107,3**
İyun - **106,7**
İyul - **126,3**
**Cəmi - 746,7**






# 3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN YANVAR-İYUL AYLARINDA 315,5 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **İYUL AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ** **31,1** milyon ABŞ dolları təşkil etmişdir

Azexport.az portalına 2018-ci ilin iyul ayı ərzində **31,1 milyon** ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2018-ci ilin birinci yarısında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri **315,5 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyul aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **19 faiz** artmışdır.

2018-ci ilin 7 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (18 %), ABŞ (8,2%), Türkiyə (7,1%), İran (4,8%) və İngiltərə (4,3%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olmuşdur ki, cari ilin iyul ayında ən çox ixrac sifarişi kosmetik vasitələr, ağ naftalan yağı, şərab, alma, meyvə cemi, pomidor, pomidor şirəsi, mebel dəsti, şüşə qablar, fındıq, nar, nar şərabı, düşes, qənnadı məhsulları, toyuq əti, mühərrik yağı, kartof, soğan, pambıq yağı, bal, süd məhsulları, zəfəran, çay, albalı şirəsi, nar şirəsi, qarğıdalı yağı, noxud, tikintidə istifadə olunan kərpic və mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 iyul tarixinə kimi (19 ay ərzində) Azexport.az portalına dünyanın 100 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **790,5 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI AVQUST

**Son 19 ay ərzindəki sifarişlərin cəmi - 790,5 milyon ABŞ dolları**

AZEXPORT.AZ
2018

### 2017-ci il ərzində

cəmi - **475 milyon**

### 2018-ci il üzrə

YANVAR - **81,5 milyon**

FEVRAL - **37,6 milyon**

MART - **66,5 milyon**

APREL - **36,9 milyon**

MAY - **27,7 milyon**

İYUN - **34,2 milyon**

İYUL - **31,1 milyon**

cəmi - **315,5 milyon**



# 2018-Cİ İLİN **İYUL AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2018 İXRAC İCMALI AVQUST

Kosmetik vasitələr



Ağ Naftalan yağı




Şərab



Alma



Meyvə cemi



Pomidor



Pomidor şirəsi



Mebel dəsti



Şüşə qablar



Fındıq



Nar



Nar şərabı



Düşes



Qənnadı məhsulları



Toyuq əti



# 2018-Cİ İLİN **YANVAR-İYUL AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



# 4

# "ASAN ÖDƏNİŞ" SİSTEMİ "WWW.AZEXPORT.AZ" İNTERNET PORTALINA İNTEQRASİYA OLUNUR

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 avqust tarixli Fərmanı ilə "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilmiş və onun "www.azexport.az" internet portalına inteqrasiyası məsələsi həllini tapmışdır.

Belə ki, "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanına uyğun olaraq "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"yə 7.22-ci bənd əlavə edilmişdir: "www.azexport.az" internet portalı vasitəsilə dövlət rüsumunun və digər ödənişlərin həyata keçirilməsi məqsədi ilə "ASAN ödəniş" sistemi portalla inteqrasiya olunur".



# 5

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ SAHİBKARLARIN XİDMƏTİNDƏDİR

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən 2018-ci ilin avqust ayı ərzində də fiziki və hüquqi şəxslərə bir pəncərə prinsipi əsasında ixracla bağlı tələb olunan sertifikatların verilməsi davam etmişdir. Həmçinin cari ilin avqust ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin əməkdaşları sahibkarların ixrac prosedurları ilə bağlı müraciətlərini cavablandırmış, onlara müxtəlif ölkələrə ixrac zamanı tələb olunan sənədlərlə bağlı ətraflı məlumat vermişlər.

Azərbaycan sahibkarlarının 2018-ci ilin  avqust ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirdikləri ixracın dəyəri isə **11, 4 milyon** ABŞ dollarından çox olmuşdur. Sahibkarlara əsasən polad borular, qurğuşun külçə, alma, pomidor, xiyar, balıq yemi, meyvə şirələri, qida yağı, arpa, ayaqqabı altlıqları, çay, pambıq tullantısı, sendviç panelləri, biyan kökü, qiymətli metal külçələr, suvenir və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, Qazaxıstan, Hollandiya, İran, Gürcüstan, İsveçrə,  Ukrayna, İraq, Moldova, Avstriya, Malayziya, Kipr, Kanada daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Məlumat üçün bildirək ki, 2018-ci ilin 1 iyul tarixindən Qida Təhlükəzsizliyi Agentliyinin nümayəndələri də “Bir Pəncərə” İxraca Dəstək Mərkəzində fəaliyyətə başlamışlar. Avqust ayı ərzində sahibkarlar “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edərək həm də Qida Təhlükəzsizliyi Agentliyində qeydiyyatdan keçmək üçün tələb olunan sənədlər barədə müvafiq məlumat almışlar.



## 2018-Cİ İLİN YANVAR - AVQUST AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları)




2018-ci ilin yanvar - avqust aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən məhsulların ümumi qeyri-neft sektoru üzrə ixracda payı **10 faiz** təşkil etmişdir



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLƏN ÖLKƏLƏRİN SİYAHISI



6

# AZƏRBAYCAN MƏHSULLARI "ÇİN-AVRASİYA" SƏRGİSİNDƏ NÜMAYİŞ OLUNMUŞDUR

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən növbəti ixrac missiyası 29 avqust - 3 sentyabr tarixlərində Çin Xalq Respublikasının Urumçi şəhərinə təşkil olunmuşdur. İxrac missiyasına müsabiqə əsasında seçilmiş və qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə istehsalı sahəsində fəaliyyət göstərən 21 Azərbaycan şirkəti daxil olmuşdur. İxrac missiyası çərçivəsində Azərbaycan və Çin şirkətləri arasında ixrac imkanlarının genişləndirilməsinə dair işgüzar görüşlər keçirilmiş, əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılmışdır.

İxrac missiyası çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan məhsulları Urumçi şəhərində avqustun 30-da öz işinə başlayan "6-cı Çin-Avrasiya" Sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunmuşdur. Bu sərgidə nümayiş olunan qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə və s. məhsullara sərgi ziyarətçiləri və xarici şirkətlər tərəfindən böyük maraq göstərilmişdir.

Sərgi çərçivəsində Azərbaycan şərabının və digər spirtli içkilərin Çinə ixracına dair "Göygöl Şərab Zavodu" ASC və çin şirkətləri arasında müzakirələr aparılmış, "Ayan" şirkəti ilə Azərbaycan limonadının ixracına dair razılığa gəlinmişdir. Azərbaycanda istehsal olunan bir çox məhsullar kimi zeytun yağı da sərgidə iştirak edən xarici şirkətlərin diqqətini cəlb etmiş və 10 ton zeytun yağının Çinə ixracına dair "Azərsun Holding" şirkəti ilə razılıq əldə olunmuşdur.

Çinin "Hans Zhou", "TİAN SHENG HOLDİNGS", "BEİJİNG REVİEW" kimi şirkətləri isə Azərbaycan fındığına böyük maraq göstərmiş və bu şirkətlərlə "Azhazelnut" şirkəti arasında ixraca dair danışıqlar aparılmışdır.








7

# İXRACATÇILAR KLUBUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Avqustun 30-da Bakı Biznes Mərkəzində keçirilmiş İxracatçılar Klubunun növbəti iclasında Qətərin Doha şəhərində təşkil ediləcək "Birinci Beynəlxalq Məhsullar Sərgisin"də iştiraka dair yerli şirkətlərin nümayəndələri ilə müzakirələr aparılmışdır. İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə keçirilmiş tədbirdə qida, sənaye, xidmət, İKT və digər sektorlarda fəaliyyət göstərən 30-dan çox şirkətin təmsilçisi iştirak etmişdir.

Azərbaycan İxracatçılar Klubunun icraçı direktoru Zöhrab Qədirovun iştirakı ilə təşkil olunmuş iclasda "Made in Azerbaijan" brendinin təşviqi, ixracın coğrafiyasının və həcminin genişləndirilməsi istiqamətində müxtəlif xarici ölkələrdə keçirilən sərgilərdə iştirakın əhəmiyyəti vurğulamışdır.

İclasda Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində reallaşdırılan tədbirlər, iqtisadiyyatın şaxələndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi və bu məqsədlə tətbiq olunan mexanizmlər, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində görülən işlər, eləcə də Azərbaycan İxracatçılar Klubunun fəaliyyəti və kluba üzvlük barədə məlumat verilmiş, "Birinci Beynəlxalq Məhsullar Sərgisin"də iştirak qaydalarına dair suallar cavablandırılmışdır.



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org